AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**QƏRAR**

**№** 026/520

**Bakı şəhəri**

"24" aprel 2026-cı il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 02-24.04.2025-ci il tarixli rəsmi məlumatlarına əsasən, İsrail Dövlətinin Hayfa (Haifa), Qüds (Jerusalem), Mərkəz (HaMerkaz) dairələrində, Peru Respublikasının La-Libertad (La Libertad), Areqipa (Arequipa) regionlarında, İslandiya Respublikasının Südürland (Suðurland) regionunda, Xorvatiya Respublikasının Brodsko-Posavska (Brodsko-Posavska) inzibati ərazi vahidində, Vyetnam Sosialist Respublikasının Nqhe An (Nghe An), Tiyen Gianq (Tien Giang), Tuyen Quanq (Tuyen Quang), Lonq An (Long An) əyalətlərində **yüksək patogen quş qripi** xəstəliyi, Almaniya Federativ Respublikasının Brandenburq (Brandenburg) vilayətində **dabaq** xəstəliyi, Şimali Makedoniya Respublikasının Poloq (Polog) regionunda isə qeydə alınmış **Nyukasl** xəstəliyi aradan qaldırılıb.

Belə ki, yuxarıda göstərilən ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 13.11.2017-ci il tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

**1.1.** 14.10.2020-ci il tarixli 67 nömrəli qərarla İsrail Dövlətinin Hayfa dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 26.12.2022-ci il tarixli 074/249 nömrəli qərarla Peru Respublikasının La-Libertad regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 01.12.2023-cü il tarixli 059/310 nömrəli qərarla İsrail Dövlətinin Qüds dairəsinə tətbiq edilmiş məhdudiyyət;

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
24.04.2026

**1.4.** 12.07.2024-cü il tarixli 042/362 nömrəli qərarla Peru Respublikasının Areqipa regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 06.12.2024-cü il tarixli 077/397 nömrəli qərarla İslandiya Respublikasının Südürland (Suðurland) regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 06.01.2025-ci il tarixli 001/407 nömrəli qərarla İsrail Dövlətinin Mərkəz dairəsinə tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 14.04.2025-ci il tarixli 023/429 nömrəli qərarla Xorvatiya Respublikasının Brodsko-Posavska inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.8.** 30.04.2025-ci il tarixli 025/431 nömrəli qərarla Vyetnam Sosialist Respublikasının Nqhe An, Tiyen Gianq, Tuyen Quanq, Lonq An əyalətlərinə tətbiq edilmiş məhdudiyyət.

**Dabaq xəstəliyi üzrə:**

**1.9.** 15.01.2025-ci il tarixli 003/409 nömrəli qərarla Almaniya Federativ Respublikasının Brandenburq vilayətinə tətbiq edilmiş məhdudiyyət.

**Nyukasl xəstəliyi üzrə:**

**1.10.** 01.04.2025-ci il tarixli 020/426 nömrəli qərarla Şimali Makedoniya Respublikasının Poloq regionuna tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentliyin Aparatının Strateji planlaşdırma, koordinasiya və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
24.04.2026